**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Bakı Şəhər Statistika İdarəsinin 2023-cü il üçün xərclər smetasının 221100 "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə**

## *KOTİROVKA SORĞUSU ELAN EDİLİR*

Kotirovka sorğusu 2 lot üzrə keçiriləcək.

Lot 1. Bakı Şəhər Statistika İdarəsinin 2023-cü il üçün xərclər smetasının 221100 "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə dəftərxana mallarının (markerlərin, dəftərxana kitablarının, yapışqanların, korrektorların, qələmlərin, bloknotların, qovluqların, printerlər üçün kartriclərin və s. dəftərxana ləvazimatlarının) satın alınması.

Lot 2. Bakı Şəhər Statistika İdarəsinin 2023-cü il üçün xərclər smetasının 221100 "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə təsərrüfat mallarının (plastik vedrələrin, antibakterial gellərin, yuyucu və təmizləyici toz və mayelərin, mebel yağlarının, salfetlərin və s.) satın alınması.

Kotirovka sorğusunda "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən satınalma prosedurunda iştirakı qadağan olunan hüquqi və fiziki şəxslər istisna olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 21 dekabr tarixli Qərarına uyğun olaraq iri sahibkarlıq subyekti olmayan istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi iddiaçı kimi iştirak edə bilərlər.

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (bundan sonra - Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və kotirovka sorğusu haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün kotirovka sorğusu iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Kotirovka sorğusunda iştirak etmək istəyənlər müəyyən edilən aşağıdakı məbləğdə iştirak haqqını həmin portalın operatoruna ödədikdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər (əlaqələndirici şəxs Rübabə Quliyeva, telefon: (012) 565 73 29).

**İştirak haqqı:** 100 AZN.

İştirak haqqının ödənilməsi yalnız "Asan Ödəniş" sistemi vasitəsilə həyata keçirilə bilər. Portalda müvafiq müsabiqə bölməsinə daxil olduqdan sonra "İştirak haqqı" bölməsində "Asan Ödəniş"lə ödə" düyməsini sıxaraq aidiyyatı keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edilə bilər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar Kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə müvafiq vergi orqanından arayış;
2. müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq vergi orqanından arayış;

3. iddiaçının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin mövcud olmaması barədə müvafiq vergi orqanından arayış;

4. iddiaçının son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə müvafiq vergi orqanından arayış;

5. satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə Daxili İşlər Nazirliyindən və ya ASAN Xidmət Mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) arayış;

6. iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

7. iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;

8. iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). Xarici dildə tərtib olunmuş sənədlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun müvafiq qaydada rəsmiləşdirildikdən (konsul leqallaşdırılmasından və ya apostilin verilməsindən) sonra Azərbaycan dilində tərcümələri notariat qaydasında təsdiq olunmalıdır.

Kotirovka sorğusu üzrə təkliflər 2023-cü il 05 iyun saat 18:00-a qədər www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalı (bundan sonra - Portal) vasitəsilə təqdim edilməlidir. İddiaçıların təklif zərfləri 2023-cü il iyun ayının 06-sı saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər. Təkliflərə "Kotirovka sorğusunun şərtlər toplusu"nda nəzərdə tutulmuş digər sənədlər də əlavə olunmalıdır. Yuxarıda qeyd olunmuş sənədlər qiymət təklifi ilə birlikdə təqdim edilmədiyi təqdirdə namizədlər iddiaçı kimi qəbul olunmayacaqlar.

QEYD: Kotirovka sorğusunda iştirak və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

**Tender komissiyası**